135/2024

# BUSINESS TIME




## BOL MƏHSUL VƏ YÜKSƏK KEYFİYYƏTİN TƏMİNATÇISI









Elastiklik, oynaqlıq, etibarlılıq!
Korroziya, zəlzələ və yanğına qarşı yüksək davamlılıq!

LMR 600 - Su dammamasına
100% təminat

# Sənaye və kommersiya təyinatlı tam komplektli hermetik polad binalar «Astron»

**NABUCCO A&C – «Astron» şirkətinin Azərbaycanda rəsmi təmsilçisi**

AZ1102, Bakı ş.
Tbilisi pr. 1058, ev 34
Tel.: +994 12 530 62 03
info@nabucco.az
www.nabucco.az

NABUCCO A & C

AZSAFFRON

— since 1959 —

# The most useful oil for your skin from Azerbaijan




+994 50 336 48 48
+994 70 336 48 48

info@azsaffron.com

www.azsaffron.com

azsaffron.official

facebook.com/AZSAFFRON

# содержание

135/2024


4 GARABAKH NEWS

SAHİBKARLIQ

6 **SAHİBKARLIĞIN DƏSTƏKLƏNMƏSİ – İCTİMAİ MÜZAKİRƏ**
KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət qurumları və iş adamları sahibkarlıq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlərə dair fikir mübadiləsi aparıblar.

AQRAR SAHƏ

8 **KƏND TƏSƏRRÜFATINDA YENİLİKLƏR VƏ TƏDBİRLƏR**
Mayın 15-də Bakı Ekspo Mərkəzində 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi başlayır.

12 **BOL MƏHSUL VƏ YÜKSƏK KEYFİYYƏTİN TƏMİNATÇISI**
Azərbaycan ərazisində illik istifadə edilən şirin su miqdarının 70%-i kənd təsərrüfatının payına düşür.

MADE IN AZERBAIJAN

16 **AZƏRBAYCAN İSTEHSALI: KEYFİYYƏTLİ ƏYLƏC BƏNDLƏRİ**
Azərbaycanın müxtəlif ərazilərində sənaye zonalarının yaradılması burada fəaliyyət göstərən zavod və fabrikləri də istehsala həvəsləndirir.

TƏDBİR

20 **SAHİBKARLAR GÜNÜ**
“Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü” mövzusunda konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunub.

ИННОВАЦИИ

22 **ДЕНЬ ИТАЛЬЯНСКОГО ДИЗАЙНА В БАКУ**
22 апреля текущего года Посольство Италии в Азербайджане совместно с Italian Trade Agency организовало в залах Центра Гейдара Алиева 8-й по счету День итальянского дизайна (IDD) под названием Manufacturing value: inclusiveness, innovation and sustainability. The Karabakh case.

24 **ИННОВАЦИОННОЕ СЕЛЬСКОЕ ХОЗЯЙСТВО**
В 2023 году сельскохозяйственная отрасль во всем мире столкнулась с различными проблемами – от экстремальных погодных условий до проблем с цепочками поставок.

28 **УМНЫЙ ГОРШОК**
Стильно, красиво, радует глаз и улучшает воздух в любом помещении.

СЕЛЬСКОХОЗЯЙСТВЕННАЯ КУЛЬТУРА

30 **30 МАЯ – ДЕНЬ КАРТОФЕЛЯ**
Продовольственная и сельскохозяйственная организация Объединенных Наций (ФАО) ставит в центр внимания колоссальное значение и неиспользованный потенциал этой сельскохозяйственной культуры.

АЛЬТЕРНАТИВНАЯ ЭНЕРГИЯ

33 **ПЯТЬ ФАКТОВ О ПОЛЕЗНЫХ ИСКОПАЕМЫХ**
Для перехода к «чистым» источникам энергии нужно будет добывать гораздо больше редких минералов, которые используются, например, в ветряных турбинах и солнечных электростанциях.

ПРОГНОЗ

36 **ОЭСР ПРОГНОЗИРУЕТ УСТОЙЧИВЫЙ РОСТ**
Организация экономического сотрудничества и развития опубликовала свой последний экономический прогноз, заявив, что ожидает устойчивого роста мировой экономики в 2024 и 2025 годах.

АРХИТЕКТУРА

38 **АРХИТЕКТУРНЫЕ ТРЕНДЫ**
Ежегодно в архитектурном мире появляются новые концепции и инновационные технологии, которые определяют будущее городского ландшафта.

ИЗМЕНЕНИЕ КЛИМАТА

41 **COP29 И ПОСЛЕДУЮЩИЙ ПЕРИОД – МИР, БЕЗОПАСНОСТЬ И ИЗМЕНЕНИЕ КЛИМАТА**
3 мая в немецком городе Бонн Европейский фонд LINKS провел конференцию на тему «COP29 и последующий период – мир, безопасность и изменение климата».

БИЕННАЛЕ 2024

42 **60-Я ВЕНЕЦИАНСКАЯ БИЕННАЛЕ: СТАРТ ДАН**
20 апреля в Венеции официально стартовала юбилейная 60-я биеннале современного искусства с темой Foreigners everywhere («Иностранцы повсюду»).

ОЛИМПИАДА 2024

46 **ОЛИМПИЙСКИЕ ИГРЫ 2024**
16 апреля олимпийский огонь был зажжен на территории археологических памятников Олимпии (Греция).

КОВРОТКАЧЕСТВО

51 **НА ФЕСТИВАЛЕ КОВРА**
4 мая у ворот Гоша Гала состоялась церемония открытия первого Национального фестиваля ковра.

БРЕНД

52 **НОСТАЛЬГИЧЕСКИЙ МАРКЕТИНГ**
Компании часто используют ностальгию, чтобы привлечь внимание клиентов.

56 **ПОЗИЦИОНИРОВАНИЕ & СТРАТЕГИЯ**
Сегодня, в цифровом мире, где конкуренция жестче, чем когда-либо, позиционирование и стратегия бренда являются двумя фундаментальными столпами, которые должны идти рука об руку.

58 AZERBAIJAN BUSINESS AWARD 2023



BUSINESS TIME

Ежемесячный деловой журнал

2024, май
#135

**Редактор**
Кямаля Рагимова

**Выпускающий редактор**
Джамиля Аллахвердиева

**Арт-директор**
Вагиф Иманов

**Дизайнер**
София Сеидзаде

**Контакты:**
Тел.: (+994 55) 200 66 62

**Генеральный директор**
Мамед Гаджиев

**Главный советник генерального директора**
Чингиз Искендеров

**Директор департамента рекламы**
Исмаил Агаев



При подготовке блоков новостей использованы материалы агентств: **TREND, SIA.** Редакция не имеет возможности вступать в переписку, рецензировать и возвращать не заказанные ею рукописи и иллюстрации. Редакция не несет ответственности за достоверность информации, опубликованной в рекламных объявлениях и сообщениях информационных агентств. Редакция не предоставляет справочной информации. Мнение редакции может не совпадать с мнением авторов.
Перепечатка материалов и использование их в любой форме, в том числе и в электронных СМИ, возможны только с письменного разрешения редакции.



Журнал зарегистрирован в Министерстве юстиции Азербайджанской Республики.
Номер регистрации № 2671
Дата регистрации 08.08.2008

© 2024 Business Time


ilğım
əmin ol!
Ədviyyat möcüzəsi
If there is love, there is also sacrifice
(+994) 77 404 40 44
info@eminler.az
www.ilgim.az
ilgim.az
facebook.com/ilgimaz

## ПРЕЗИДЕНТЫ АЗЕРБАЙДЖАНА И КЫРГЫЗСТАНА ПОБЫВАЛИ В КРЕПОСТИ ШАХБУЛАГ В АГДАМЕ

25 апреля Президент Азербайджанской Республики Ильхам Алиев и президент Кыргызской Республики Садыр Жапаров побывали в крепости Шахбулаг в Агдаме.

Главы государств были проинформированы о работах по восстановлению крепости. Было отмечено, что эта крепость XVIII века является одним из самых известных памятников на территории Карабаха. Крепость, расположенная недалеко от села Шахбулаг, в 10 км от города Агдам, построена в 1751-1752 годах основателем Карабахского ханства Панахали ханом. Памятник, известный в научной литературе под названием «Шахбулагский замок», по сути являлся внутренней крепостью крупного замкового комплекса. Комплекс состоял из жилых домов, рынка, бани и мечети. До строительства Панахали ханом Шушинской крепости Шахбулаг была административным центром Карабахского ханства. После оккупации Агдама армяне пытались арменизировать крепость, как и ряд других наших памятников, а близлежащую мечеть преподносили как церковь.

В настоящее время Азербайджан восстанавливает памятник. Здесь благоустроена территория площадью 12 га, построены административное здание, пункт продажи билетов, автостоянка. Возведены Шахбулагская резиденция, мечеть Шаха Аббаса, ресторан, отельный комплекс, беседки, создана площадка для проведения мероприятий и складское помещение.

Во дворе крепости Шахбулаг главы государств наблюдали за приготовлением тендирного хлеба и кутабов.

## ПРОГРАММА САМОЗАНЯТОСТИ ОХВАТИТ 2,5 ТЫС. ЖИТЕЛЕЙ КАРАБАХА К 2026 ГОДУ

Программа самозанятости, предусматривающая государственную поддержку для открытия своего бизнеса, охватит 2500 жителей в Карабахе к 2026 году.

Об этом заявил глава правления Государственного агентства занятости Мустафа Аббасбейли. По его словам, более 50 человек уже вовлечены в эту программу.

«Мы начали активную деятельность в освобожденных районах, ярмарки труда проведены в селе Агалы Зангиланского района, городах Физули и Лачын. Процесс вовлечения в программу самозанятости продолжается параллельно с возвращением граждан на освобожденные территории», – сказал М.Аббасбейли.



## СОВМЕСТНЫЙ ТУРЕЦКО-РОССИЙСКИЙ МОНИТОРИНГОВЫЙ ЦЕНТР В АГДАМЕ ПРЕКРАТИЛ СВОЮ ДЕЯТЕЛЬНОСТЬ

Состоялась торжественная церемония, организованная Министерством обороны, в связи с прекращением деятельности Совместного турецко-российского мониторингового центра в Агдаме.

На церемонии присутствовали заместитель министра обороны – начальник Генерального штаба армии Азербайджана генерал-полковник Керим Велиев, начальник Генштаба сухопутных войск Министерства национальной обороны Турции Левент Эргюн, заместитель начальника Генштаба Министерства обороны России Сергей Истраков, а также послы России и Турции в Азербайджане, начальник российского миротворческого контингента.

Церемония началась с исполнения государственных гимнов трех стран.

Генерал-полковник Керим Велиев рассказал о деятельности Совместного мониторингового центра, созданного согласно меморандуму, подписанному 11 ноября 2020 года между Турецкой Республикой и Российской Федерацией.

Начальник генштаба выразил благодарность турецким и российским военнослужащим за несение с 30 января 2021 года добросовестной и мужественной службы во имя мира и стабильности в регионе и пожелал им успехов в дальнейшей службе.

Было также отмечено, что в соответствии с трехсторонним заявлением, подписанным 10 ноября 2020 года Президентом Азербайджанской Республики, президентом Российской Федерации и премьер-министром Республики Армения, деятельность миротворческого контингента РФ, временно дислоцированного в Карабахском экономическом районе Азербайджанской Республики, согласно договоренности, достигнутой между высшим руководством двух стран, досрочно приостанавливается и начинается процесс полного вывода с территории страны.

Церемония закрытия завершилась художественной программой с участием Ансамбля песни и танца Армейского центра идеологии и культуры имени Ази Асланова и Военного оркестра Военного института имени Гейдара Алиева.

## К 2026 ГОДУ ПЛАНИРУЕТСЯ ПОСТРОИТЬ 3 ГОРОДА, 29 СЕЛ И ПОСЕЛКОВ В ВОСТОЧНО-ЗАНГЕЗУРСКОЙ ЗОНЕ

К 2026 году планируется строительство 3 городов, 5 поселков и 24 деревень в Зангилане, Джабраиле и Губадлы.

Об этом заявил специальный представитель президента в Джабраильском, Губадлинском и Зангиланском районах Вахид Гаджиев на панельной дискуссии на тему «Устойчивое развитие в Карабахе» в рамках прошедшей в Лачыне международной конференции с участием экспертов из 30 стран.

«Эти инициативы основаны на современных принципах городского планирования, которые, конечно же, отдают приоритет устойчивому развитию, инклюзивности и безопасности. Но мы также должны упомянуть, что в соответствии с целями COP29 мы обязуемся сократить выбросы парниковых газов на 40% к 2050 году и создать зону чистого нулевого уровня выбросов на освобожденных территориях. Мы разрабатываем экологически чистые источники энергии, используя водные энергетические ресурсы в Зангилане», – рассказал представитель президента.

В.Гаджиев отметил, что в Зангилане уже есть введенные в эксплуатацию 4 гидроэлектростанции общей мощностью около 42 МВт.

По его словам, в Джабраиле также реализуются крупные проекты в области ВИЭ. «Солнечные электростанции мощностью 240 МВт – это грандиозный проект, который компания BP планирует реализовать в Джабраиле. Следующим будет проект Nobel Energy с партнерами, которые также собираются построить здесь солнечную станцию мощностью 100 МВт. Это, по сути, вносит значительный вклад в создание зоны зеленой энергетики на освобожденных территориях, о чем мы объявили», – заявил В.Гаджиев.

## BİRLİK DERİ ПОЛУЧИТ СТАТУС РЕЗИДЕНТА АГДАМСКОГО ПРОМЫШЛЕННОГО ПАРКА

Турецкая компания Birlik Deri, специализирующаяся на производстве кожаных изделий, планирует развивать деятельность в Карабахском экономическом районе Азербайджана.

Об этом говорится в сообщении Торгового представительства при Генеральном консульстве Азербайджана в Стамбуле.

«25 апреля, в день предпринимателя в Азербайджане, было принято решение о предоставлении турецкой компании Birlik Deri статуса резидента Агдамского промышленного парка в Карабахе», – говорится в информации представительства.

В сообщении отмечается, что первая встреча с владельцем компании Birlik Deri Бурханом Демирсесом в Торговом представительстве состоялась 24 ноября 2023 года, в ходе которой он завил о намерении компании принять участие в восстановлении Карабаха.

«Будущая деятельность компании Birlik Deri в Агдамском промпарке станет беспроигрышной моделью и будет способствовать развитию Карабахского региона, занятости возвращающегося населения и повышению социально-экономического благосостояния», – говорится в информации.

Напомним, что Президент Азербайджана Ильхам Алиев 28 мая 2021 года подписал Указ о создании Агдамского промышленного парка. Территория промпарка составляет 190 га. Общие инвестиции резидентов парка оцениваются в свыше 200 млн AZN.

## В ШУШЕ ИНТЕНСИВНО ИДУТ РАБОТЫ ПО ВОССТАНОВЛЕНИЮ ДОРОГ

В городе Шуша интенсивно ведутся работы по восстановлению дорог. Об этом заявил специальный представитель президента Азербайджанской Республики в Шушинском районе Айдын Керимов на панельной дискуссии на тему «Устойчивое развитие в Карабахе» в рамках проходящей в Лачыне международной конференции с участием экспертов из 30 стран.

«Что касается дорог, то в городе Шуша с января этого года по февраль мы приступили к полной реконструкции улично-дорожной сети города, которая будет осуществляться в 2 этапа. Первый этап в период 2024-2025 годов включает в себя около 22 км дорог, а второй этап до конца 2026 года – оставшиеся 35 км городской дорожной сети», – сказал специальный представитель.

## ВЕНГРИЯ РАЗРАБАТЫВАЕТ ПЛАН СВОЕГО УЧАСТИЯ В ВОССТАНОВИТЕЛЬНЫХ РАБОТАХ В КАРАБАХЕ

Венгрия разрабатывает план своего участия в восстановительных работах на освобожденных территориях Азербайджана.

Об этом заявил министр иностранных дел и внешней торговли Венгрии Петер Сийярто в ходе 10-го заседания азербайджано-венгерской межправительственной комиссии в Баку.

«Венгрия разрабатывает план своего участия в проводимых в Карабахе восстановительных работах. К ноябрю этого года указанный план будет готов, он позволит определить сферы деятельности, в которых могут участвовать венгерские компании», – заявил П.Сийярто.

Кроме того, стало известно, что в Агентство развития малого и среднего бизнеса (KOBİA) при Министерстве экономики поступила 81 заявка от венгерских компаний на открытие бизнеса в Карабахе.

# SAHİBKARLIĞIN DƏSTƏKLƏNMƏSİ – İCTİMAİ MÜZAKİRƏ



**KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət qurumları və iş adamları sahibkarlıq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlərə dair fikir mübadiləsi aparıblar.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Bakı KOB evi"ndə "Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları" mövzusunda ictimai müzakirə təşkil olunub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvlərinin, aidiyyəti dövlət qurumlarının, biznes assosiasiyaların nümayəndələrinin və iş adamlarının iştirakı ilə keçirilən tədbirdə sahibkarlıq sahəsində mövcud qanunvericiliyə, bu sahədə aparılan islahatların biznes mühitinə təsirinə və nəzərdə tutulan yeniliklərə dair fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Tədbirdə KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov İctimai Şuranın ötən ilki fəaliyyəti barədə məlumat verib, şuranın təşkilatçılığı ilə 2023-cü ildə 500-dən çox sahibkarın iştirakı ilə müxtəlif mövzularda 7 ictimai müzakirənin, görüş və digər tədbirlərin keçirildiyini bildirib. 2024-cü ildə də KOBİA yanında İctimai Şura çərçivəsində KOB-ların iştirakı ilə bir sıra tədbir və görüşlərin keçirilməsi nəzərdə tutulur.



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Milli Məclisin qəbul edilmiş qanunların və onlara edilən dəyişikliklərin sahibkarlara təsirini izləmək üçün mütəmadi olaraq iş adamları, biznes assosiasiyalar ilə görüşlər keçirdiyini, bugünkü ictimai müzakirənin də sahibkarların fikir və təkliflərini dinləmək üçün əlverişli platforma olduğunu bildirib.



KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, sahibkarlıq fəaliyyəti zamanla ayaqlaşdığı üçün müasir çağırışlar və yeni tələblər qanunvericilikdə də öz əksini tapmalıdır. Bildirilib ki, yeni qanunların qəbulu və mövcud aktların təkmilləşdirilməsi prosesində sahə üzrə maraqlı tərəflər müzakirələrdə daha aktiv iştirak etməlidir. Son zamanlar qəbul edilmiş "Dövlət satınalmaları haqqında", "Arbitraj haqqında", "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunlar, Rəqabət Məcəlləsi yeni fəaliyyət istiqamətlərini tənzimləməklə müvafiq sahələrin və sahibkarlığın inkişafına töhvə verəcək. Həmçinin gömrük, vergi məcəllələrinə, sahibkarlıq fəaliyyətinə birbaşa və dolayı təsir edən digər normativ sənədlərə edilən dəyişikliklər də bu sahədə aparılan islahatların davamlılığına və biznes mühitinin inkişafına yönələn addımlardır.

Təkcə 2023-cü ildə KOBİA tərəfindən 240-a yaxın normativ sənəd layihəsinə rəy və təkliflər bildirilib. Hazırda da sahibkarlıq sahəsi ilə bağlı yeni normativ hüquqi aktların layihələrinin hazırlanması və mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.



SLAVYANKA®
GƏDƏBƏY
SİFARİŞ ÜÇÜN
*2121
SLAVYANKA
GƏDƏBƏY
QAZSIZ
0.5 L
SLAVYANKA
GƏDƏBƏY
QAZLI
0.5 L
SLAVYANKA.AZ

# KƏND TƏSƏRRÜFATINDA YENİLİKLƏR VƏ TƏDBİRLƏR



Mayın 15-də Bakı Ekspo Mərkəzində 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi başlayır. Bu məqalədə kənd təsərrüfatı sektorunda baş verən əsas xəbərlərə və hadisələrə nəzər salmaq istəyirik.

## Azərbaycan və Braziliya – əməkdaşlıq imkanları

Mart ayında Kənd Təsərrüfatı Nazirliyində Braziliya Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyinin ticarət və beynəlxalq əlaqələr üzrə katibi Roberto Perosanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilib. Məhz bu siyasət nəticəsində ölkəmizdə aqrar sahə öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Nazir Məcnun Məmmədov Azərbaycanda qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının rolu, aqrar sektora dövlət dəstəyi, kənd təsərrüfatı sahəsində aparılan islahatlar, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi, aqrar xidmətlərin elektronlaşdırılması, respublikamızda mövcud olan əlverişli investisiya mühiti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Görüşdə Azərbaycan ilə Braziliya arasında aqrar sahədə əməkdaşlıq və hüquq-müqavilə bazasının yaradılması, kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə ən müasir texnologiyaların transferi, heyvandarlıq sahələrində əməkdaşlığın gücləndirilməsi, aqrar sektorda elmi-tədqiqat sahəsində təcrübə proqramlarının həyata keçirilmə məsələləri, eləcə də Azərbaycanın kənd təsərrüfatı məhsullarının Braziliyaya ixracının genişləndirilməsi məsələsi müzakirə edilib.

MART AYINDA KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNDƏ BRAZİLİYA KƏND TƏSƏRRÜFATI VƏ HEYVANDARLIQ NAZİRLİYİNİN TİCARƏT VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR ÜZRƏ KATİBİ ROBERTO PEROSANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLİB.



Nazir Məcnun Məmmədov ölkəmizdə hər il təşkil olunan "Caspian Agro" sərgisinin əhəmiyyətinə toxunub, Braziliyalı iş adamlarını bu sərgidə fəal iştiraka, həmçinin etibarlı və əlverişli biznes mühitini nəzərə alaraq Azərbaycanın kənd təsərrüfatı sektoruna sərmayə qoymaq imkanlarını araşdırmağa çağırıb. Görüşdə kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Tərəflər iki ölkə arasında kənd təsərrüfatı sahəsində gələcəkdə ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını ifadə ediblər. Sonda qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.






## Aqrar Sığorta Fondu nəticələrini açıqlayıb

Fondun məlumatına görə, cari ilin yanvar-mart ayları ərzində Aqrar Sığorta Fondu tərəfindən 323 min hektar əkin sahəsi və 882 baş kənd təsərrüfatı heyvanları sığortalanıb.

Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 22 min hektar və ya təqribən 7% artıb. Hesabat dövründə bitkiçilik sığortası üzrə 6 milyon 815 min manat, heyvandarlıq təsərrüfatlarının sığortası üzrə 537 min manat olmaqla, ümumilikdə 7 milyon 352 min manat sığorta haqqı toplanıb. Bu dövrdə ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri payızlıq buğda və payızlıq arpa sahələri, eləcə də fındıq bağları olub. Sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 255 milyon manatdan artıq olub. 2024-cü ilin yanvar-mart aylarında Aqrar Sığorta Fondu tərəfindən sığortalı fermerlərə təsərrüfatlara dəymiş zərərlər üzrə 1 milyon 752 min manat sığorta ödənişi edilib. Fondun məlumatına görə, sığorta ödənişlərinin 1 milyon 434 min manatı bitkiçilik, 318 min manatı heyvandarlıq üzrə edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə sığorta ödənişlərinin məbləği 2,2 dəfə artıb. Bitkiçilik üzrə sığorta ödənişləri 2,5 dəfə, heyvandarlıq üzrə ödənişlər isə 42% yüksəlib. Xatırladaq ki, 2023-cü ilin yanvar-mart aylarında Aqrar Sığorta Fondu tərəfindən sığortalı fermerlərə ümumilikdə 799 min manat sığorta ödənişi edilmişdi.

2024-cü ilin 1-ci rübündə ən çox sığorta ödənişləri fırtına, dolu və subasma hadisələri üzrə həyata keçirilib. Regionlar üzrə ən çox sığorta ödənişləri Füzuli, Şəki və Ağdam rayonlarındakı təsərrüfatlarda olub.

Aqrar Sığorta Fondunun fəaliyyəti və aqrar sığorta şərtləri barədə daha ətraflı məlumatı Fondun rəsmi internet səhifəsindən (www.asf.gov.az) əldə etmək olar.

## Yevlaxda "Yaşıl dünya naminə həmrəylik ili"

Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi, "Azərşəkər" MMC, "Gilan Pivot" MMC-nin birgə təşkilatçılığı ilə Yevlax rayonunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "İqlim dəyişikliyinə adaptasiya edən torpaq və resurs qoruyucu yeni texnologiyaların nümayişi" mövzusunda respublika müşavirəsi keçirilib. Tədbirdə kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Yevlax Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Xaliq Əliyev, aidiyyəti dövlət qurumlarının nümayəndələri, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbərləri və fermerlər iştirak ediblər. 500-ə yaxın qonağın iştirak etdiyi müşavirənin keçirilməsində əsas məqsəd son dövrlərdə dünyada baş verən qlobal istiləşmənin kənd təsərrüfatına mənfi təsirlərinin azaldılması baxımından iqlim dəyişikliyinə adaptasiya edən nəmlik qoruyucu texnologiyaların və innovativ yeniliklərin ölkə ərazisində geniş tətbiq edilməsi, ətraf mühitin qorunması, quraqlıqdan əziyyət çəkən bölgələrdə fəaliyyət göstərən fermerlərin bilik və bacarıqlarının artırılması, həmçinin iri fermer təsərrüfatları və aqroparklar tərəfindən bu sahədə əldə edilmiş təcrübələrin bölüşülməsidir.

Tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov bildirib ki, son illərdə Azərbaycanda qeyri-neft sektoruna göstərilən yüksək dövlət diqqəti nəticəsində iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sahədə keyfiyyətcə yeni inkişaf mərhələsinə keçid üçün əsaslı zəmin yaranıb və ölkənin ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi prosesində mühüm addımlar atılıb. Nazir müavini qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin artırılması, məhsul istehsalçılarına dövlət dəstəyinin göstərilməsi ilə bağlı imzaladığı Sərəncam və verdiyi tapşırıqlar bu sektorda istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsini stimullaşdırmaqla innovativ texnologiyaların tətbiqi imkanlarını genişləndirib. Azərbaycanın bu il Birləşmiş Millətlər




Müşavirədə kənd təsərrüfatı sahəsində tətbiq olunan innovativ texnologiyalar, texnikalar, müasir suvarma sistemləri, orqanik gübrələr və biopreparatlar nümayiş etdirilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Pomidor sahələrinin sığortası

Ölkəmizdə fermerlərin aqrar sığorta təqvimində yeni səhifə başlayıb. Aprel-may ayları Azərbaycanda pomidor sahələrinin sığortalanması dövrüdür.

Tərkibi vitaminlərlə zəngin olan, olduqca faydalı bitki sayılan pomidor Azərbaycanın kənd təsərrüfatında xüsusi yer tutur. Rəsmi məlumatlara əsasən, Azərbaycandakı açıq və qapalı sahələrdə ümumilikdə 18 min hektara yaxın ərazidə pomidor becərilir. Bu sahələrdən ildə 800 min tondan artıq məhsul götürülür.

Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini xatırladan nazir müavini əlavə edib ki, bu mötəbər tədbirin ölkədə aqrar və ekoloji siyasətin qabaqcıl beynəlxalq təcrübəyə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasında mühüm rolu olacaq: "Bu istiqamətdə innovativ yanaşmaların və alətlərin istifadəsi ətraf mühitin qorunması ilə yanaşı, kənd təsərrüfatının davamlılığına, ekoloji təmiz ərzaqla təminatına, habelə kənd yerlərində rifahın artmasına töhfə verəcək".

Tədbirdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov deyib ki, aqrar sahədə tətbiq olunan yeniliklər, innovativ texnikalardan geniş istifadə məhsuldarlığı dəfələrlə artırır, torpaq və su resurslarından daha səmərəli istifadə olunur, məhsulun maya dəyəri azalır, fermerlər daha çox gəlir əldə edirlər. Məhz bu səbəbdən fermerlərin innovativ kənd təsərrüfatı texnikalarına marağı artır. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, fermerlərimizin bu imkanlardan yararlanaraq innovativ kənd təsərrüfatı texnikalarından geniş istifadə etməsi Azərbaycanda aqrar sahənin inkişafına öz töhfəsini vermiş olacaq.

"Azərşəkər" MMC-nin İdarə Heyətinin sədri Anar Mehdiyev "Mzuri" texnologiyasının üstünlükləri barədə məlumat verib. Bildirib ki, "Mzuri"nin üstün cəhəti 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsidir. Bu texnikanın istifadəsinin əsas məqsədi suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanılması və havaya buraxılan zəhərli qazların təsirinin aradan qaldırılmasıdır.

"Gilan Pivot" MMC-nin baş direktoru Ruslan Ələskərov kənd təsərrüfatı sahəsində "Dragon-Line" texnologiyasının tətbiq edilməsinin əhəmiyyətindən danışıb. Diqqətə çatdırılıb ki, "Dragon-Line" pivot və damcılı suvarma sisteminin sintezi olan yeni nəsil hibrid suvarma sistemidir. Bu suvarma sistemindən istifadə suya və elektrik enerjisinə 20-50%-ə qədər qənaət edir, torpağın kipləşməsini, qaysaqlamasını və suyun səthi axınlarını azaldır, anitemperatur dəyişikliklərində bitki şokunun qarşısını alır.

2024-CÜ İLİN 1-Cİ RÜBÜNDƏ ƏN ÇOX SIĞORTA ÖDƏNİŞLƏRİ FIRTINA, DOLU VƏ SUBASMA HADİSƏLƏRİ ÜZRƏ HƏYATA KEÇİRİLİB. REGİONLAR ÜZRƏ ƏN ÇOX SIĞORTA ÖDƏNİŞLƏRİ FÜZULİ, ŞƏKİ VƏ AĞDAM RAYONLARINDAKI TƏSƏRRÜFATLARDA OLUB.



Aqrar sığorta qaydalarına əsasən, əkin sahələrinin sığortası mövsümidir və müəyyən vaxt ərzində həyata keçirilməlidir. Bu baxımdan pomidor əkinlərinin sığortası dövrü may ayının ortalarına qədər davam edəcək.

Pomidor ölkənin bütün ərazilərində əkilir, ən çox pomidor əkinləri Xaçmaz rayonundadır. Burada 2 min hektara yaxın sahədə pomidor əkilir. Qubada 1000 hektar, Sabirabadda 900 hektar, Şəmkirdə 1650 hektar, Ucarda 776 hektar, Kürdəmir və Biləsuvarda 600 hektar, Lənkəranda isə 1121.3 hektar pomidor sahəsi var. Bu bitki təkcə vitaminlərlə qiymətli deyil. Artıq bir neçə ildir ki, pomidor Azərbaycandan xaricə ixrac olunan qey-

ri-neft məhsulları siyahısında əsas yerlərdən birini tutur. Təkcə 2023-cü il ərzində ölkəmiz pomidor ixracından təxminən 162 milyon ABŞ dolları məbləğində qazanc əldə edib. Son 3 ildə bu rəqəm demək olar ki, dəyişmir və pomidor ixracı Azərbaycanda kənd təsərrüfatının sabit gəlirli sahəsi hesab olunur.

Pomidor iqtisadi cəhətdən sərfəli, gəlirli bitki olsa da, çoxsaylı risklərə qarşı həssasdır və xüsusi qulluq tələb edir. Bu səbəbdən pomidor Aqrar Sığorta Fondu tərəfindən sığortalanan bitkilər siyahısına daxil edilib. Pomidor əkini ilə məşğul olan fermerlər öz əkinlərini aqrar sığorta vasitəsilə çoxsaylı risklərdən – dolu, qasırğa, fırtına, sel, subasma, 3-cü şəxslərin hərəkətləri, müxtəlif xəstəliklərdən qoruya bilərlər.

Azərbaycanda aqrar sığorta dövlət dəstəyi ilə fəaliyyət göstərdiyinə görə, əkin sahələrinin sığortalanması zamanı hesablanmış sığorta haqqının 50%-i dövlət tərəfindən ödənilir. Nəticədə fermerlər cüzi vəsait ödəməklə əkin sahəsini sığorta edə bilirlər. Məsələn, Salyan rayonunda 1000 manatlıq pomidor əkininin sığortalanması üzrə sığorta haqqı 20,2 manat təşkil edir. Bu məbləğin yarısını dövlət, qalan 10,1 manat sığorta haqqını isə fermer ödəyir. Quba-Xaçmazda bu məbləğ 11,8 manat, Mərkəzi Aran bölgəsində 10,5 manat, Qazax-Tovuz regionunda 21,7 manat, Lənkəranda isə 11 manat təşkil edir.

Aqrar sığorta qaydalarına əsasən, əkin sahələrinin sığortası mövsümidir və müəyyən vaxt ərzində həyata keçirilməlidir. Bu baxımdan pomidor əkinlərinin sığortası dövrü may ayının ortalarına qədər davam edəcək. Fermerlər əkinlərin yerləşdiyi regiondan asılı olaraq həmin tarixlərədək pomidor əkinlərini sığortalaya, bu sahədəki məhsul və gəlirlərini risklərdən qoruya bilərlər.

Əkinlərini sığortalamaq istəyən fermerlər şərtlərlə Aqrar Sığorta Fondunun 1651 Çağrı mərkəzinə müraciət etməklə və ya www.asf.gov.az rəsmi səhifəsi vasitəsilə tanış ola, “Sığorta kalkulyatoru” bölməsini seçərək sığorta haqqını özləri də hesablaya bilərlər.

## Aqrar Biznes Festivalı Qəbələdə

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Qəbələ ASAN Xidmət Mərkəzində Aqrar Biznes Festivalı keçirilib. Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu, İstehlak Mallarının Ekspertizası Mərkəzi və Sahibkarlar Konfederasiyasının tərəfdaşlığı ilə təşkil olunan festivalda Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala və Şəki rayonlarından fermerlər iştirak ediblər. Festivalda kənd təsərrüfatı fəaliyyətinin maraqlı tərəfləri olan təchizatçı şirkətlər və dövlət qurumlarının mütəxəssislərinin fermerlərlə bir araya gələrək təcrübə mübadiləsi aparmasına, məhsul satışına imkan yaradılıb.

Tədbirdə ümumilikdə 60-dan çox aqrar sahədə fəaliyyət göstərən özəl şirkət və dövlət qurumları təmsil olunub. Aqrar Biznes Festivalında regionda sahibkarlığın inkişafına dəstək vermək, güzəştli kreditlərin verilməsi ilə bağlı məlumatlılığı artırmaq məqsədilə 10-a yaxın bank və bank olmayan kredit təşkilatı da iştirak edib.

2024-cü ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tədbirinin çağırışlarının təşviqatı məqsədilə festivalda təbiətqoruyucu və iqlimədost texnologiyalar nümayiş olunub.



Festivalda kənd təsərrüfatı fəaliyyətinin maraqlı tərəfləri olan təchizatçı şirkətlər və dövlət qurumlarının mütəxəssislərinin fermerlərlə bir araya gələrək təcrübə mübadiləsi aparmasına, məhsul satışına imkan yaradılıb.

Tədbirin açılış mərasimində çıxış edən Qəbələ rayonunun İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, İstehlak Mallarının Ekspertizası Mərkəzinin direktor müavini Vidadi Quliyev və KTN Protokol sektorunun müdiri Toğrul Qafarbəyli Aqrar Biznes Festivallarını sahibkarlarla fermerləri bir araya gətirən, maarifləndirmə prosesinə mühüm töhfə verən platforma kimi dəyərləndiriblər.

Festivalda Sahibkarlar Günü münasibətilə 2024-ci ilin I rübü ərzində Aqrar Biznes Festivalları çərçivəsində yüksək nəticələr əldə etmiş sahibkarlar təşəkkürnamə ilə təltif olunublar.

Festivalda Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin mütəxəssisləri “Azərbaycanda 2023-cü ildə tütün istehsalı” mövzusunda təqdimat ediblər. Təqdimatda tütün emalı və istehsalı müəssisəsinin rəhbərləri, tütünçülüklə məşğul olan fermerlər iştirak ediblər. İştirakçılara tütün istehsalı, tədarükü, emalı və məhsuldarlığı, bu istiqamətdə həyata keçirilən dövlət dəstəyi tədbirləri barədə geniş məlumat verilib. Maarifləndirmə sessiyasında tütünçülüyün mövcud durumu və çətinliklər barədə fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

# BOL MƏHSUL VƏ YÜKSƏK KEYFİYYƏTİN TƏMİNATÇISI




Azərbaycan ərazisində illik istifadə edilən şirin su miqdarının 70%-i kənd təsərrüfatının payına düşür. Ölkəmizin kənd təsərrüfatında suvarmanın böyük hissəsi selləmə suvarma üsulunun payına düşür. Bu isə öz növbəsində ciddi su itkisinə və torpaqdakı mineralların su ilə birlikdə yuyulub torpağın şoranlığının artmasına, qrunt sularının yüksəlməsinə və su ehtiyyatlarının nəzərə çarpacaq dərəcədə azalmasına səbəb olur.

Nəzərə alsaq ki, selləmə suvarma zamanı tətbiq edilən suyun 35-60%-i itkiyə gedir, pivot suvarma sistemlərinin tətbiqi ilə bu rəqəmi 15-20%-ə, damcılarla suvarma üsulunda isə 5-10%-ə qədər azaltmaq mümkündür.

Təəssüf ki, dünyada qlobal istiləşmənin şirin su ehtiyyatlarına göstərdiyi mənfi təsir hər birimizə məlumdur. Bu səbəbdən ölkəmizin şirin su ehtiyatlarını qorumaq, onlardan düzgün və effektiv istifadə etmək önəmli strateji bir məsələyə çevrilmişdir. Hər il fermerlərin minlərlə hektar əkin sahələrinin məhsuldarlığı quraqlıq ucbatından nəzərə çarpacaq dərəcədə aşağı düşür.

Kənd təsərrüfatında suvarmanın effektivliyinin yüksəldilməsi, daxili istehsalı artırmaqla idxaldan asılılığın azaldılması üçün önəmli bir məsələdir. Problemin həlli əkilən məhsula, torpağa və iqlimə uyğun müasir suvarma üsullarının tətbiqidir. Bu məsələ daim ölkə rəhbərliyinin nəzarətində olmuş və zəruri işlərin görülməsi üçün vaxtaşırı müxtəlif layihələrin icrasına göstəriş verilmişdir.

Cənab Prezidentin 24 iyul 2020-ci il tarixli Sərəncamı ilə AKİA tərəfindən fermerlərə müasir suvarma sistemlərinin qurulması üçün dəstək məqsədilə dövlət büdcəsindən 40%-ə qədər subsidiya ayrılması bu diqqət və qayğının bariz nümunəsidir.

Ölkəmizdə bu sahəyə olan tələbin yüksək olmasından yararlanaraq, iqtisadiyyatımızın kənd təsərrüfatı cəbhəsində yer almaq üçün 2017-ci ildə təsisçilər tərəfindən “Gilan Pivot MMC”nin qurulmasına qərar verilmişdir.

Şirkətimiz təsis edildiyi gündən bu sahə üzrə yüksək ixtisaslaşmış kadrlar komandamıza cəlb edir və mütəmadi olaraq xarici şirkətlərlə təcrübə mübadiləsi aparır.

Hazırda “Gilan Pivot MMC” pivot suvarma sistemləri üzrə dünyada lider sayılan, ABŞ-nin “Valmont” şirkətinin və eyni şəkildə damcılarla suvarma üzrə İsrailin “Rivulis” şirkətlərinin Azərbaycanda rəsmi nümayəndəsidir.

Geniş yayılmış suvarma üsulları pivot və damlama sistemlərinin təbii olaraq hər birinin digərinə görə üstün və mənfi cəhətləri vardır.

Mərkəzi pivot sistemləri mərkəz nöqtəsi ətrafında, 70 metrədək uzunluqdan bir yüksək keyfiyyətli elektrik mühərrikləri ilə təchiz edilmiş təkərlər sayəsində hərəkət edən, əsas su daşıyıcı boru və dizayna uyğun və bu boruya birləşdirilmiş çiləyicilərdən ibarət yağış yağdırma qurğularıdır.

Pivot qurğuları digərlərindən nisbətən daha uzun müddətli işləmə, az texniki qulluq tələb edən və yüksək dayanıqlılıq xüsu-



siyyətlərinə malikdir. Bu qurğular sayəsində suvarma ilə yanaşı səthi gübrələmə, bitki dərmanlarının tətbiqi də xeyli asanlaşmış və itkilərin qarşısı ciddi şəkildə alınmışdır. Müasir avtomatik həllərin tətbiqi ilə pivot sistemlərinin uzaqdan həssas idarəsi, tətbiq edilən suyun miqdarına nəzarət, su hesabatlarının çıxarılması və s. mümkündür. Pivot suvarma sisteminin ən böyük üstünlükləri su sərfiyyatının azaldılması, əkin sahəsinin hər yerinin bərabər miqdarda suvarılması, növbəli əkinin mümkünlüyü və əkin sahəsinə minimal fiziki müdaxilənin edilməsidir. Bununla yanaşı pivot suvarma sistemlərinin torpaq nəmlik sensorları, meteostansiyalar və NDVİ kimi müasir Peyk analiz sistemləri ilə inteqrasiyası da mümkündür. Onu da qeyd etmək istəyərdim ki, pivot qurğularının enerji sərfiyyatı effektivliyi ilə müqayisədə çox aşağıdır.

"DRAGON-LINE" PİVOT SUVARMANIN MOBİLLİYİNİ VƏ DAMCILI SUVARMANIN EFFEKTİVLİYİNİ ÖZÜNDƏ BİRLƏŞDİRƏN İNNOVATİV, HİBRİD SUVARMA SİSTEMİDİR.

Hər bir sistemdə olduğu kimi yağış yağdırma qurğularının da çatışmayan cəhətləri vardır və inkişaf etdirilərək, günün tələbinə uyğunlaşdırılması lazım gəlir.

Bildiyiniz kimi, pivot çiləyicilərinin funksiyası tətbiq olunan suyu optimal ölçüdə damcılara ayıraraq, mümkün qədər homogen yağışa bənzətməkdir.

Lakin, küləkli havalarda hündürlükdən düşən damcılar küləyin təsirinə məruz qalaraq hərəkət trayektoriyasını dəyişir və nəzərdə tutulan sahəni islatmır. Nəticədə qeyri-bərabər suvarma etmiş oluruq. Bu həm su, həm də, məhsul itkisinə yol açır.

Eyni zamanda, yüksəklikdən düşən damcıların kinetik və potensial enerjilərinin cəmi torpaq səthinə zərbələr nəticəsində kipləşmə yaradır. Kipləşmiş torpağın su keçiriciliyinə təsir edən iki amil vardır:

Birincisi, sıxlaşmış torpaq suyun torpaq altına axınının qarşısını kəsir, ikincisi isə, su torpağın üstündə örtük yaratdığı üçün torpağın tərkibindəki hava qabarcıqları torpağı tərk edə bilmir ki, həmin məsamələrə su dolsun. Bu, torpaq səthində axınların yaranması və torpağın su tutuculuğunun azalması ilə nəticələnir, qaysaqlanmalar yaradır.

Yaranan axınlar bitki köklərindəki torpağın yuyulmasına, bitkilərin xəstəliklərə və dəyişən hava şərtlərinə daha az davamlı olmasına, eyni zamanda, pivot təkərlərinin həmin hissələrdə batmasına səbəb olur. Təsərrüfatçılar fikrimi təsdiqləyər ki, pivot batmaları suvarmanın ləngiməsi və işçilik baxımından nə qədər ciddi zərərlərlə nəticələnir. Qaysaqlanmanın aradan qaldırılmasının yeganə üsulu isə mexaniki tədbirlərdir.

Suvarmanın ən effektiv hesab olunan üsulu isə damcılarla suvarmadır.

Bu suvarma üsulunda sahə sektorlara bölünür və sektorlara uyğun ana borular atılır. Daha sonra əkin planına uyğun bitki köklərinə yaxın suvarma boruları çəkilir. Bu boruların iki növü











DAMLA SİSTEMİ BAĞÇILIQ ÜÇÜN OPTİMAL SEÇİMDİR. LAKİN, MİNLƏRLƏ HEKTAR ƏRAZİLƏRDƏ DƏNLİ VƏ YA TƏRƏVƏZ BİTKİLƏRİ BECƏRİLİRSƏ, SƏNAYE BİTKİLƏRİ ƏKİLİRSƏ, İŞİN HƏCMİ CİDDİ ŞƏKİLDƏ DƏYİŞİR.

vardır: əvvəlcədən su çıxışları olanlar və sərildikdən sonra bitki köklərinə uyğun deşilənlər.

Damlama üsulu böyük əksəriyyəti bağ və uzun illik bitkilər olmaqla yanaşı, bir illik bitkilərdə də uğurla tətbiq edilməkdədir.

Damlama suvarmanın üstünlüklərini sadalasaq, ən önəmlisi suyun birbaşa bitki kökünə tətbiq edilməsiylə minimal su sərfiyyatıdır. Eyni zamanda damcılarla suvarma zamanı su damcısı və torpaq arasında bitki yarpaqları kimi maneələrin olmamasından dolayı tətbiq edilən suyun 100%-i buxarlanmadan, itkilərlə qarşılaşmadan torpağa çatır.

Pivot sistemlərində olduğu kimi damcılarla suvarma sistemlərində də kök gübrələri və dərmanlarının tətbiqi mümkün və asandır. Bu da fermerlərə dərman və gübrələrin bir başa bitkiyə tətbiq edilməsiylə xərcləri minimala endirmək və torpaq resurslarının qorunması kimi üstünlüklər yaradır.

Pivot və damlama sisteminin daha bir ortaq cəhəti damlama suvarmanın da uzaqdan həssas idarəsi və nəmlik sensorları, meteostansiyalar və peyk sistemləri ilə inteqrasiyasının mümkün olmasıdır. Bu inteqrasiya sayəsində fermer və dövlət qurumları sudan optimal istifadəyə nəzarət edə bilir və fermerlərə növbəti əkin üçün daha dəqiq əkin planı hazırlama imkanı yaranır. İcra etdiyimiz bir çox layihələrimizdə bu cür kompleks həllər tətbiq etmişik və nəticələr həqiqətən təqdirəlayiqdir.

Damlama idealdırmı? Xeyr!

Damla sistemi bağçılıq üçün optimal seçimdir. Lakin, minlərlə hektar ərazilərdə dənli və ya tərəvəz bitkiləri becərilirsə, sənaye bitkiləri əkilirsə, işin həcmi ciddi şəkildə dəyişir.

Belə bitkilərin böyük əksəriyyəti bir illikdir və sahədə müxtəlif periodlarla aqrotexniki proseslər üçün texnikanın hərəkəti tələb olunur. O zaman biz məcbur oluruq ki, hər il həmin boruları əkindən sonra sərək və məhsul biçinindən öncə toplayaq. Bu çox ciddi işçilik xərcləri tələb edir. Bəzən biçin öncəsi boruların toplanması məhsula da zərər verir. Belə böyük sahələrdə sistemin fiziki sağlamlığına nəzarət etmək də çətindir. Bilirsiniz ki, sistemdə qəzaların olması gözə alınmalı bir məsələdir. Daha bir problem isə ölkəmizdə damlama borularının təkrar emalının olmamasıdır. Bir çox yerlərdə toplanılan borular utilizasiya məqsədilə yandırılır ki, bu, atmosferə zərərli qazların buraxılması ilə nəticələnir və təbiətin mühafizə missiyasına tamamilə əksdir.

Ümumiyyətlə, sahibkarlar bizə müraciət edən zaman onların hesaba qatmadığı bütün əlavə məsələləri biz bu sahənin mütəxəssisləri olaraq qabaqcadan bildirir və həllərimizi təklif edirik.

“Bəs nə etməli?” sualına cavabımız isə “Dragon-Line”dır.

“Dragon-Line” pivot suvarmanın mobilliyini və damcılı suvarmanın effektivliyini özündə birləşdirən innovativ, hibrid suvarma sistemidir. Azərbaycan dilində mobil damcılı suvarma, qısaca MDS kimi səsləndirilir.

Öncəliklə qeyd etmək istəyərdik ki, “Dragon-Line” sistemini istənilən marka/model pivot və ya linear suvarma maşınlarına inteqrasiya etmək mümkündür. Dizayn zamanı borular arasındakı məsafəni tələbə uyğun seçmək və daha sonra lazım gələrsə, müxtəlif nöqtələrdən tənzimləyərək, əkinə uyğunlaşdırmaq olur.

Bu sistem suvarma maşınının əsas funksiyasına heç bir təsir etmir və lazım gəldikdə pivot yenə çiləyicilər vasitəsilə suvarma edə bilər. Bunun üçün suyun kranlar vasitəsilə çiləyiciyə və ya “Dragon-Line” vasitəsilə istiqamətləndirilməsi yetərlidir.

## “Dragon-Line”nın pivota nəzərən üstünlükləri nələrdir?

- Ən önəmlisi, damlama çıxışları ilə suvarma etdiyi üçün pivotla suvarmaya nisbətən 50%-ə qədər suya qənaət edir.
- Nəzərə alsaq ki, bəzi aqrokimyəvi vasitələr də eyni su ilə tətbiq olunur, bu sistemin digər tərəfdən də qənaətə və istehsalat xərclərinin daha da azaldılmasına kömək edir.
- Gələk enerjiyə qənaətə: hər bir pivot çiləyici qrafikinə uyğun olaraq düzgün suvarma etmək üçün girişdə müəyyən bir təzyiq tələb edir. Borularda təzyiq yaratmaq üçün isə nasoslardan istifadə edilir. Daha yüksək təzyiq daha çox enerji sərfiyyatı deməkdir. Dragon-Line inteqrasiya edilmiş bir pivotun düzgün suvarma etməsi üçün əvvəlkinin təxminən yarısı qədər təzyiq tətbiq etmək yetərlidir. Yuxarıda qeyd etdiyimin tərsinə, daha aşağı təzyiq daha az enerji sərfiyyatı deməkdir. Nəticədə, enerjiyə də ciddi qənaət etmiş oluruq.

**Son olaraq ümumiləşdirilmiş şəkildə, üstünlükləri bir daha saymaq istəyirik:**

1. Effektiv suvarma;
2. Suya və enerjiyə qənaət;
3. Aqrokimyəvi vasitələrə qənaət;
4. Minimal işçilik.

Yuxarıda sadaladıqlarımızı nəzərə alaraq deyə bilirik ki, “Dragon-Line” bol məhsul və yüksək keyfiyyətin təminatçısıdır.

GILAN PIVOT






















DRAGON-LINE MOBILE DRIP IRRIGATION

VALLEY
A valmont COMPANY

Rivulis

manna by Rivulis

+994 50 290 53 48
+994 50 290 53 40

office@gilanpivot.az

www.gilanpivot.az

Badamdar Estates,
Mikayıl Müşfiq küç. 1C, Bakı

# AZƏRBAYCAN İSTEHSALI: KEYFİYYƏTLİ ƏYLƏC BƏNDLƏRİ



Azərbaycanın müxtəlif ərazilərində sənaye zonalarının yaradılması burada fəaliyyət göstərən zavod və fabrikləri də istehsala həvəsləndirir. Belə çoxsaylı ərazilərdən birində – Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərən müəssisələrdən biri də "Brake Systems Azerbaijan" MMC-dir. Müxtəlif növ nəqliyyat vasitələri üçün əyləc bəndləri istehsal edən bu zavod yeni fəaliyyətə başlamasına baxmayaraq, artıq uğurlara imza atıb. Sevindirici haldır ki, bu gənc müəssisənin məhsullarına yalnız Azərbaycanda deyil, ölkə xaricində də maraq göstərilir.

**MMC-nin direktoru Mehman Ağayev fəaliyyətləri ilə bağlı suallarımıza ətraflı cavab verib.**

**– Niyə görə fəaliyyət üçün məhz sənaye zonasını seçmisiniz?**

– Hacıqabul Sənaye Məhəlləsi yerləşmə baxımından çox əlverişlidir. Bu ərazi həm Bakıya, həm Ələt Azad İqtisadi Zonasına yaxındır, həm də buranın müasir infrastrukturu var, ərazi dəmiryol xətlərinə çox yaxındır. Məlumdur ki, Ələt Azad İqtisadi Zonasının yaxınlığında aeroport tikilir, orada yük karqosu da olacaq. Sənaye məhəlləsinin yerləşdiyi ərazi oranın rezidentləri üçün inkişaf perspektivləri yaradır. Zavodumuz sənaye məhəlləsində yerləşdiyi üçün dövlətin müəyyən təşviq mexanizmlərindən – vergi və gömrük güzəştlərindən və s. yararlana bilirik. Yerləşdiyimiz ərazini məhəllə özü bizə icarəyə verib. Tikintiyə yatırım etməmişik, bu da biznes üçün kifayət qədər sərfəlidir. Bütün bunlar bizim üçün cəlbedici olduğuna görə məhz orada yerləşməyə üstünlük verdik.

**– Sənaye məhəlləsində fəaliyyət göstərməyiniz məhsullarınızın maya dəyərini aşağı salmağa, onları rəqabətədavamlı etməyə imkan verirmi?**

– Əlbəttə. Dövlətin təşviq mexanizmlərindən yararlandığımıza görə xərclərimiz azalır. İnvestisiya yatırımımız daha az olduğundan, yəni binaya, tikintiyə yatırım etmədiyimizdən amortizasiya ayırmalarımız azalır. Sözsüz ki, bunlar hamısı maya dəyərinə təsir edir və bu, bizim bazardakı rəqabət qabiliyyətimizi, xarici bazarlara çıxış imkanlarımızı artırır.

**– Hazırda neçə avtomobil modeli üçün əyləc bəndləri istehsal edirsiniz? Modellərin sayının artırılması nəzərdə tutulurmu?**

– Hazırda 200-dən artıq avtomobil modeli üçün əyləc bəndləri istehsal edə bilirik. Bu məhsullar "Toyota", "Mitsubishi", "Nissan", "Hyundai", "KİA", "İnfiniti", "Mercedes", "BMW", "Mazda", "Suzuki" markalarının müxtəlif modelləri üçün nəzərdə tutulur. Artıq 100-ə yaxın model üçün satış məhsullarımız hazırdır, alıcılar onları mağazalardan ala bilərlər. İndi komplektləşdirmə prosesi getdiyi üçün bütün məhsullarımızı tam satışa çıxara bilməmişik. Yaxın iki ay ərzində ümumilikdə 200-dən artıq model üçün məhsul təklif edə biləcəyik. Bu ilin sonuna qədər bu sayı 300-ə çatdıracağıq.

**– Məhsullarınızın alıcılıq qabiliyyəti, qiymət siyasətiniz necədir?**

– Belə bir siyasətimiz var: yaxşıların içində ən ucuzu, ucuzların içində ən yaxşısıyıq. Sözsüz ki, bazarda müxtəlif keyfiyyətli, müxtəlif səviyyəli məhsullar var. Bizim məhsullar kifayət qədər yüksək keyfiyyətlidir və yaxşı dəyərləndirilən məhsulların arasındadır. Bəli, bazarda bizim məhsuldan ucuz olanları var, amma onlar keyfiyyətinə görə bizimkilərlə müqayisə oluna bilməz. Brend adı çəkmək istəməzdim, elə əyləc bəndləri var ki, onların məhsulunun qiyməti bizim məhsulumuzun qiymətinin yarısı qədərdir, amma onun ömrü bizim məhsulun ömründən ən azı üç dəfə azdır. Şərti olaraq, deyim ki, müştəri 15 manata aldığı üç əyləc bəndinin əvəzinə bizimkindən bir dəst ala bilər və bu halda bizim məhsulun ömrü üç əyləc bəndinin ömründən daha uzun olacaq. Normal halda əyləc bəndlərinin yürüş məsafəsi 60-70 min km olmalıdır. Amma bazarda elə məhsullar var ki, heç 10 min km










yürüş getməmiş sıradan çıxır, yenisi ilə əvəzlənməli olur. Belə məhsullarla müqayisədə bizim qiymət baha görünə bilər, lakin hesablayanda məlum olur ki, bizim əyləc bəndlərimiz qiymətinə görə daha ucuz başa gəlir. Burada təkcə keyfiyyətdən söhbət getmir, əyləclər üçün həm də müəyyən standartlar var. 10-15 min km yürüş edən əyləc bəndləri əslində, heç bir standarta cavab vermir. Onlar bir az yüngül desək, istehlakçını aldadır. Bizim siyasətimizdən biri də məhz bu baxımdan istehlakçıların mənafeyini qorumaq, onları bu məsələlərlə bağlı maarifləndirməkdir. Bu istiqamətdə sosial şəbəkə vasitəsilə də işlər görürük.

**– Bazardakı əsas rəqib məhsullarınız hansı ölkələrin istehsalıdir?**

– Bazarda Çin, Koreya, Hindistan, Türkiyə, İran məhsulları var. Az da olsa, rus, yapon məhsulları da satılır. Onların böyük əksəriyyətini özümüzə rəqib hesab etmirik, çünki həmin məhsulların keyfiyyəti bizim məhsulların keyfiyyətindən aşağıdır. Zamanla alıcılarımız da bunu dəyərləndirəcəklər.

**– Məhsulların istifadə müddəti nə qədərdir?**

– Bəndlərin yürüş məsafəsi 60-70 min km-dir. Sözsüz ki, istifadə müddətinin nə qədər olması sürücünün əyləcdən necə istifadə etməyindən çox asılıdır. Biz minimum 40-50 min km-ə zəmanət veririk. Eyni şərtlər daxilində bir sürücü üçün yürüş məsafəsi 40-50 min km, digəri üçün bu, 80 min km-ə qədər yüksələ bilər.

**– Yerli istehsala başladıqdan sonra daxili bazarda idxalın çəkisini azalda bilmisinizmi? Bazardakı mövqeyiniz necədir?**

– Biz satışa yeni başladığımız üçün bunu vurğulamaq çox doğru olmazdı. Amma hədəfimiz yerli bazarda təxminən 20-25 faiz paya sahib olmaqdır. Bu, eyni zamanda eyni sinifdə olan məhsulların pərakəndə satış qiymətlərinin 15-20 faiz azalmasına gətirib çıxaracaqdır.

**– Hədəfinizə təxminən nə vaxt nail ola biləcəksiniz?**

– Hədəfimiz bu ilin sonu-gələn ilin əvvəlinə bu nəticəni əldə etməkdir.

**– Məhsullarınızı xarici bazarlara çıxarırsınız? Bu istiqamətdə hansı işlər görürsünüz?**

– Yaxın ölkələrdən Gürcüstana, Rusiyaya, Belarusa, Qazaxıstana, hətta Küveytə, İraqa belə nümunələr göndərmişik, geri dönüşlər də yaxşıdır. Küveyt artıq sifarişini verib, hazırda onların sifarişlərini hazırlayırıq. Qazaxıstandan, İraqdan sifariş gözləyirik. Rusiya və Gürcüstanla isə danışıqlarımız davam edir. Məhsullarımıza kifayət qədər maraq var.

**– Küveyt nə qədər məhsul sifariş verib?**

– Küveyt daha çox məhsul istəyib, amma bu gün imkanımız bir az məhduddur. Küveytə təxminən 40 min dollar dəyərində məhsul ixracımız olacaq.

**– Mehman müəllim, yeni məhsullar istehsal etməyi nəzərdə tutursunuzmu?**

